RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 165 (9044) ŞƏNBƏ, 6 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Ermәni hәrbi birlәşmәlәrinin ünsürlәrinin әrazimizdәn çıxarılması tәmin edilmәlidir



→ 2

## Avropa İttifaqı regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirəcək



→ 2

## Azərbaycan və Avstriya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir



→ 2

## Zəngəzur dəhlizinin tikintisi 57 faiz icra olunub

Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və uzunluğu 123,6 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi sürətlə davam edir.

Avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib və I texniki dərəcəli olaraq beynəlxalq magistral normalara uyğun inşa olunur. Artıq layihə üzrə işlərin ümumi 57 faizi yerinə yetirilib.

→ 5

# Müstəqil siyasətin leytmotivi



### İlham Əliyevin uğurlu diplomatiyası Azərbaycanın geosiyasi çəkisini artırır, beynəlxalq əlaqələrini daha da gücləndirir

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

Dünya indi Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Bütün bu uğurlar isə cəmi 30 ildə əldə edilib.

Son 19 ildə isə İlham Əliyevin yürütdüyü siyasətlə Azərbaycan iqtisadi və siyasi müstəqilliyə sahib qüdrətli dövlət kimi beynəlxalq nüfuzunu daha da artırıb. Bu bir həqiqətdir ki, İlham Əliyev hər zaman yürütdüyü siyasətdə Azərbaycanın dövlət maraqlarını üstün tutub və milli mənafelərimizin müdafiəsini başlıca vəzifələrdən biri hesab edib. Bu gün də bu qətiyyətli siyasət uğurla davam etməkdədir.

→ 6

## Prezident qanun, fərman və sərəncamlar imzaladı



→ 2

## İlham ƏLİYEV: “Əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsi zəruridir”



→ 2

## Qafqaz Müsəlmanları İdarəsi Azərbaycanın Britaniyadakı səfirliyinə qarşı törədilən təcavüz aktı ilə bağlı bəyanat yayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin binasına qarşı törədilən təcavüz aktı ilə bağlı bəyanat yayıb. İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bəyanatda deyilir:

"Qafqaz Müsəlmanları İdarəsi avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin binasına qarşı törədilən təcavüz aktını narahatlıq hissi ilə qətiyyətlə pisləyir və öncədən hazırlanmış, siyasi məqsədli terror, vandalizm aktı kimi qiymətləndirir. Bu hadisə Azərbaycan Respublikasına, ümumən beynəlxalq hüquqazidd təxribat aktıdır.

→ 4

## İstənilən təxribat cavabsız qalmayacaq

İkinci Qarabağ müharibəsində cəmi 44 günə məğlub olaraq Azərbaycan qarşısında diz çökən Ermənistan son vaxtlar yenə də təxribatlar törətməklə sülh müqaviləsini imzalamaqdan yayınır. Məğlub ölkə 2020-ci il 10 noyabr Bəyanatının müddəalarını pozmaqda davam edir. Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində baş vermiş sonuncu təxribat nəticəsində hərbi qulluqçumuzun həlak olması da bunu təsdiqləyir.

Təbii ki, hərbi qulluqçusunu itirən Qalib Ordu bu təxribata cavab verməli idi və kod adı "Qisas" olan əməliyyatla bunu etdi də...

### Bütün məsuliyyət Ermənistanın üzərinə düşür

Dünən Prezident İlham Əliyev də Fransa Prezidenti Emmanuel Makronla telefon danışığı zamanı baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib.

→ 4



# Hasilat sabit, ixrac ahəngdardır

→ 5

# Azərbaycan və Avstriya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Şuller-Qötzburqun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Tomas Şuller-Qötzburq etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirərək özünün Avstriyaya səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırladı. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığa toxunaraq Avstriya şirkətlərinin Azərbaycanda uzun illər uğurla fəaliyyət göstərdiyini qeyd etdi. Dövlətimizin başçısı bir çox Avropa şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərinə böyük maraq göstərdiklərini deyərək Avstriya şirkətlərinin də həmin ərazilərdə tikinti, infrastruktur və digər sahələrdə fəal iştirak edəcəklərinə ümidvar olduğunu bildirdi. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığına toxunan Prezident İlham Əliyev Avstriyanın bu əməkdaşlığı daim dəstəklədiyini məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Avropa İttifaqı ilə əlaqələrimizin genişləndirilməsində Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin səfərinin önəmini qeyd etdi və səfər çərçivəsində imzalanan Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında, eyni zamanda nəqliyyat, ticarət, yüksək texnologiyalar, turizm, kənd təsərrüfatı, tikinti sahələrini də qeyd etdi.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Tomas Şuller-Qötzburq ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının bu il 30 illiyinin qeyd edildiyini vurğuladı. İkitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsinin vacibliyinə toxunan səfir bunun üçün səylərini əsirgəməyəcəyini dedi. Tomas Şuller-Qötzburq vurğuladı ki, dövlətimizin başçısı tərəfindən əməkdaşlığımızın qeyd olunan əsas istiqamətləri hər iki ölkə üçün çox vacibdir. Səfir eyni zamanda Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində də Avstriyanın ikitərəfli əlaqələri bundan sonra da dəstəkləyəcəyini bildirdi. O, ölkəmizin tolerantlıq nümunəsi olduğunu vurğulayaraq Azərbaycanın bu sahədə beynəlxalq tədbirlərə verdiyi töhfəni xüsusi olaraq qeyd etdi.

# Erməni hərbi birləşmələrinin ünsürlərinin ərazimizdən çıxarılması təmin edilməlidir

Avqustun 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Emmanuel Makron son günlərdə regionda yaranmış gərginlikdən narahatlığını ifadə edərək Ermənistan ilə Azərbaycan arasında danışıqların davam etdirilməsinin və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının həyata keçirilməsinin vacibliyini qeyd edib. O, Fransanın iki ölkə arasında dialoqun davam etdirilməsinə dəstək verməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev Ermənistan tərəfindən növbəti hərbi təxribatın törədildiyini və Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində baş vermiş bu təxribat nəticəsində hərbi qulluqçumuzun həlak olduğunu vurğulayıb. Dövlətimizin başçısı Azərbaycan Silahlı Qüvvələrinin bu təxribatın qarşısını aldığını, lazımi cavab tədbirləri gördüyünü deyib və baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirən Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ünsürlərinin ərazimizdən çıxarılması təmin edilməlidir. Lakin Ermənistan tərəfindən bu, hələ də təmin edilməyib. Bu isə öz növbəsində rəsmi İrəvan tərəfindən 2020-ci il 10 noyabr Bəyanatının müddəalarının pozulması və Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirməməsidir.

Dövlətimizin başçısı vurğulayıb ki, üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq, Rusiya Müdafiə Nazirliyi ilə əldə olunmuş razılaşma nəticəsində Laçın dəhlizinə alternativ yeni yolun marşrutu müəyyən edilib və Azərbaycan tərəfindən bu yolun inşası başa çatdırılmaq üzrədir. Bu işlər yekunlaşan kimi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən Rusiya sülhməramlı qüvvələrinin həmin yola dislokasiya olunması nəzərdə tutulur.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat xidməti***

# Avropa İttifaqı regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirəcək

Avqustun 5-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Şarl Mişel bu günlərdə regionda yaranmış gərginliklə bağlı narahatlığını bildirib. O, Brüssel sülh gündəliyinə uyğun olaraq Avropa İttifaqının regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirəcəyini vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində növbəti dəfə hərbi təxribat törədib və nəticədə hərbi qulluqçumuz həlak olub. Silahlı Qüvvələrimiz tərəfindən zəruri tədbirlər görülməklə bu təxribatın qarşısının alındığını vurğulayan dövlətimizin başçısı baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarına zidd olaraq Ermənistan Azərbaycanın Qarabağ bölgəsində yerləşmiş qoşunlarını ərazilərimizdən çıxarmayıb. Həmçinin qanunsuz erməni hərbi birləşmələrinin də ərazilərimizdə öz mövcudluğunu davam etdirdiyini deyən dövlətimizin başçısı artıq 2 ilə yaxın müddətdə Ermənistanın 10 noyabr Bəyanatına əsasən üzərinə düşən öhdəlikləri yerinə yetirmədiyini bildirib.

Prezident İlham Əliyev vurğulayıb ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni hərbi birləşmələrinin ünsürləri torpaqlarımızdan çıxarılmalıdır.

Dövlətimizin başçısı üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Rusiya Müdafiə Nazirliyi ilə əldə olunmuş razılaşmaya əsasən Laçın dəhlizinə alternativ yeni yolun marşrutunun müəyyən edildiyini, Azərbaycan tərəfindən bu yolun inşasının yekunlaşmaq üzrə olduğunu və yolun tikinti işləri bitəndən sonra Rusiya sülhməramlı qüvvələrinin də həmin yola dislokasiya olunacağını vurğulayıb.

Telefon söhbəti zamanı Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər barədə müzakirələr aparılıb.

***Prezidentin Mətbuat xidməti***

# Kəlbəcərdə Azərbaycan Ordusunun hərbi qulluqçusunun minaya düşməsi ilə bağlı cinayət işi başlanıb

Kəlbəcər Hərbi Prokurorluğuna avqustun 5-də Kəlbəcər rayonunun işğaldan azad olunmuş ərazisində Azərbaycan Ordusunun hərbi qulluqçusu Babək Əliyevin minaya düşməsi barədə məlumat daxil olub.

Hərbi Prokurorluqdan AZƏRTAC-a bildiriblər ki, prokurorluğun əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış ilkin araşdırmalarla Babək Əliyevin rayon ərazisində xidməti vəzifələrini icra edərkən piyada əleyhinə minaya düşməsi nəticəsində həlak olması müəyyən edilib.

Faktla bağlı Kəlbəcər Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb.

Hazırda istintaq davam edir.

# *İlham ƏLİYEV:* "Əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsi zəruridir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Layçakın etimadnaməsini qəbul edib.

Səfir Milan Layçak etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında əlaqələrin uğurlu inkişafını qeyd edərək qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfəni vurğuladı.

Dövlətimizin başçısı əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi, əvvəllər müzakirə edilən məsələlərin həyata keçiriləcəyinə ümidvar olduğunu dedi. İqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın və qarşılıqlı ticarətin dərinləşdirilməsi, həmçinin Azərbaycan və Slovakiya şirkətlərinin ölkələrimizdə fəaliyyətinin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı, eyni zamanda Slovakiya şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində iştirakda marağını da qeyd etdi.

Prezident İlham Əliyev Slovakiyanın Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığına verdiyi dəstəyi də vurğuladı.

Səfir Milan Layçak ölkələrimiz arasında siyasi əlaqələrin kifayət qədər fəal olduğunu qeyd edərək iqtisadi münasibətlərin genişləndiyini dedi və əlaqələrimizin daha da möhkəmlənməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

# Azərbaycan Respublikası Prezidentinin "Magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə komissiya yaradılması haqqında" 2012-ci il 27 iyun tarixli 2307 nömrəli, "Azərbaycan Respublikasında müasir Neft-Qaz Emalı və Neft-Kimya Kompleksinin yaradılması ilə bağlı Komissiyanın təşkili haqqında" 2013-cü il 2 aprel tarixli 2828 nömrəli, "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində Hərbi Ovçuluq İttifaqının yaradılması haqqında" 2013-cü il 24 iyul tarixli 3017 nömrəli və "Nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2014-cü il 8 may tarixli 442 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində inşa edilmiş yaşayış evləri və digər tikililərlə bağlı məsələlərin tənzimlənməsi məqsədi ilə komissiya yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 27 iyun tarixli 2307 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 618; 2019, № 2, maddə 295) 1-ci hissəsi ilə təsdiq edilmiş komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının daxili işlər naziri

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Azərbaycan Respublikasının ədliyyə naziri

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri.".

2. "Azərbaycan Respublikasında müasir Neft-Qaz Emalı və Neft-Kimya Kompleksinin yaradılması ilə bağlı Komissiyanın təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 2 aprel tarixli 2828 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 383; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384; 2019, № 2, maddə 295) 1-ci hissəsində "Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi - şöbə müdiri" sözləri "Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri" sözləri çıxarılsın.

3. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində Hərbi Ovçuluq İttifaqının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyul tarixli 3017 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 848; 2016, № 2 (II kitab), maddə 346; 2019, № 5, maddə 817; 2020, № 5, maddə 601) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında, 1-ci, 2-ci hissələrdə və 3-cü hissənin birinci abzasında "Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri "Prezidentinin Təhlükəsizlik Xidmətinin" sözləri ilə əvəz edilsin;

3.2. 3.2-ci bənddə "Xüsusi Dövlət Mühafizə Xidmətinə" sözləri "Prezidentinin Təhlükəsizlik Xidmətinə" sözləri ilə əvəz edilsin;

3.3. 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.3. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin təklifləri əsasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:".

4. "Nüvə texnologiyalarından dinc məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 may tarixli 442 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 506; 2016, № 2 (II kitab), maddə 347; 2019, № 3, maddə 469; 2020, № 5, maddə 602) 2.3-cü bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2022-ci il*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 11-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711, № 11, maddə 1206, № 12, maddə 1335; Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 525-VIQD nömrəli Qanunu) 13-cü maddəsində "əmtəə" sözü "malların istehsalından və (və ya)" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191, № 8, maddə 1380, № 11, maddə 1686; 2020, № 5, maddə 523, № 6, maddə 676, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 7, maddə 717, № 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 59.8-ci maddəyə "nəzarətini" sözündən sonra "(sahibkarlara münasibətdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.2. 72.1-ci və 75.4-cü maddələrə "nəzarəti" sözündən sonra "(sahibkarlara münasibətdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**Maddə 3.** "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 415; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 235, 237, № 12, maddə 706; 2004, № 4, maddə 202, № 6, maddə 396, № 10, maddələr 761, 779; 2007, № 5, maddə 442, № 10, maddə 938; 2008, № 8, maddə 695; 2009, № 6, maddə 398; 2014, № 10, maddə 1169; 2015, № 2, maddə 102; 2017, № 6, maddə 1022, № 12 (I kitab), maddə 2204; 2018, № 7 (I kitab), maddə 1384) 25-ci maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Sahibkarlara münasibətdə dövlət yanğın nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 4.** "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224; 1999, № 8, maddə 476; 2001, № 11, maddələr 673, 696, № 12, maddə 736; 2004, № 7, maddə 505; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2016, № 1, maddə 22; 2018, № 5, maddə 849; 2019, № 1, maddə 20, № 11, maddə 1689; 2020, № 7, maddə 842; 2021, № 7, maddə 701, № 12, maddə 1315) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 21-ci maddənin ikinci hissəsində "qanunvericiliyə" sözü "qanuna" sözü ilə əvəz edilsin;

4.2. 35-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Sahibkarlara münasibətdə yerin təkindən istifadəyə dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 5.** "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2004, № 2, maddə 57; 2007, № 10, maddə 938; 2014, № 8, maddə 959, № 11, maddə 1366; 2019, № 6, maddə 988, № 8, maddə 1383; 2021, № 12, maddə 1315) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 16-cı maddənin ikinci hissəsinə "məhkəmənin və" sözlərindən sonra "qanunla müəyyən olunmuş qaydada" sözləri əlavə edilsin;

5.2. 20-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Sahibkarlara münasibətdə balıqçılıq sahəsində dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 6.** "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 81; 2005, № 4, maddə 278; 2007, № 10, maddə 938; 2008, № 11, maddə 957; 2014, № 4, maddə 332, № 10, maddə 1167; 2017, № 5, maddə 721; 2019, № 1, maddə 29) 17-ci maddəsinin 1-ci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sahibkarlara münasibətdə təhlükə potensiallı obyektlərə dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 7.** "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 364; 2019, № 1, maddə 20) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 12.6-cı maddədə "qanunvericiliklə" sözü "qanunla" sözü ilə əvəz edilsin;

7.2. 24.2-ci maddəyə "qaydada" sözündən sonra "(sahibkarlara münasibətdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**Maddə 8.** "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 568; 2002, № 5, maddə 240; 2003, № 1, maddə 6; 2007, № 5, maddə 397, № 10, maddə 938; 2009, № 12, maddə 945; 2016, № 1, maddə 28; 2017, № 1, maddə 2, № 12 (I kitab), maddə 2244; 2018, № 12 (I kitab), maddə 2476) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 16.2.9-cu maddədə "qanunvericilikdə" sözü "qanunda" sözü ilə əvəz edilsin;

8.2. aşağıdakı məzmunda 19.1-1-ci maddə əlavə edilsin:

"19.1-1. Sahibkarlara münasibətdə tütün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 9.** "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685; 2006, № 11, maddə 932; 2007, № 5, maddə 442, № 11, maddə 1053; 2016, № 6, maddə 969, № 12, maddə 1989; 2017, № 3, maddə 346, № 6, maddələr 1024, 1046, № 7, maddə 1266, № 12 (I kitab), maddə 2255; 2018, № 6, maddə 1161; 2019, № 4, maddə 588, № 7, maddə 1177, № 12, maddə 1882; 2020, № 8, maddə 1012; 2021, № 12, maddə 1343) aşağıdakı məzmunda 17.1-1-ci maddə əlavə edilsin:

"17.1-1. Sahibkarlara münasibətdə telekommunikasiya fəaliyyətinə dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 10.** "Damazlıq heyvandarlıq haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 143; 2011, № 2, maddə 71; 2017, № 7, maddə 1275) aşağıdakı məzmunda 6.3-cü maddə əlavə edilsin:

"6.3. Sahibkarlara münasibətdə damazlıq heyvandarlığa dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 11.** "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 327; 2009, № 10, maddə 769) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 9.4-cü maddəyə "nəzarəti" sözündən sonra "(sahibkarlara münasibətdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

11.2. 14.5-ci maddədə "orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər" sözləri "orqanı həyata keçirir" sözləri ilə əvəz edilsin.

**Maddə 12.** "Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 576; 2016, № 1, maddə 30) aşağıdakı məzmunda 15.3-1-ci maddə əlavə edilsin:

"15.3-1. Sahibkarlara münasibətdə pambıq və pambıq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**Maddə 13.** "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 642; 2018, № 6, maddə 1178; 2019, № 1, maddələr 21, 41; 2021, № 4, maddə 311) aşağıdakı məzmunda 16.3-1-ci maddə əlavə edilsin:

"16.3-1. Sahibkarlara münasibətdə bu Qanunun 16.3-cü maddəsində qeyd edilən nəzarət tədbirləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2022-ci il*

## "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 586-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 586-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245; 2008, № 10, maddə 898; 2009, № 4, maddə 219, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 3, maddə 458; 2017, № 3, maddə 360; 2018, № 11, maddə 2278; 2021, № 7, maddə 727) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 9.14-cü bəndində "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə, "qanunvericilikdə nəzərdə tutulmuş qaydada" sözləri "qanuna müvafiq olaraq" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 586-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin yerləşdirilməsi üçün alınmış Berlin şəhəri, Hoffmanstrasse 11 ünvanında yerləşən binanın satılması haqqında" 2008-ci il 5 fevral tarixli 2661 nömrəli, "Azərbaycan Respublikasında neft-qaz emalı və neft-kimya sənayesinin strateji inkişafı barədə təkliflərin hazırlanması üçün Komissiyanın tərkibinin təsdiq edilməsi haqqında" 2009-cu il 23 sentyabr tarixli 492 nömrəli, "Tikinti kompleksində səhmləri dövlət mülkiyyətində olan səhmdar cəmiyyətlərinin özəlləşdirilməsi haqqında" 2010-cu il 6 aprel tarixli 839 nömrəli, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında" 2010-cu il 3 may tarixli 885 nömrəli, "Azərbaycan Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 2011-ci il 29 aprel tarixli 1478 nömrəli, "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramının təsdiq edilməsi haqqında" 2011-ci il 16 may tarixli 1504 nömrəli, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 7 iyul tarixli 1621 nömrəli və "Fransa Respublikasındakı Azərbaycan Mədəniyyət Mərkəzinin binasının təmiri və yenidən qurulması haqqında" 2011-ci il 24 noyabr tarixli 1858 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin yerləşdirilməsi üçün alınmış Berlin şəhəri, Hoffmanstrasse 11 ünvanında yerləşən binanın satılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 fevral tarixli 2661 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 69; 2010, № 7, maddə 610) 2-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasında neft-qaz emalı və neft-kimya sənayesinin strateji inkişafı barədə təkliflərin hazırlanması üçün Komissiyanın tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 sentyabr tarixli 492 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 721; 2010, № 6, maddə 501; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının energetika naziri

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti.".

3. "Tikinti kompleksində səhmləri dövlət mülkiyyətində olan səhmdar cəmiyyətlərinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 6 aprel tarixli 839 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 309) 3-cü hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

4. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli 885 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 409; 2014, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 341; 2017, № 8, maddə 1521, № 10, maddə 1847; 2018, № 3, maddə 463; 2020, № 5, maddə 601) 2.3-cü bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 aprel tarixli 1478 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 360) 5-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 may tarixli 1504 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 409; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1470, № 10, maddə 1675; 2017, № 8, maddə 1521) ilə təsdiq edilmiş "2011 - 2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı"nın "5. Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planı" hissəsinin 3.6-cı bəndinin "İcraçı" sütunundan "ƏMDK," akronimi və həmin hissənin "Akronimlər" bəndinin altıncı və yeddinci abzasları çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 687; 2014, № 6, maddə 644, № 9, maddə 1027, № 10, maddə 1266; 2016, № 2 (II kitab), maddə 251; 2017, № 8, maddə 1521) ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın "6. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 6.2.8-ci yarımbəndinin "İcraçılar" sütununda "və Turizm Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "Azərbaycan" sözündən əvvəl "Dövlət Turizm Agentliyi" sözləri əlavə edilsin.

8. "Fransa Respublikasındakı Azərbaycan Mədəniyyət Mərkəzinin binasının təmiri və yenidən qurulması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 24 noyabr tarixli 1858 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1057) 1-ci və 2-ci hissələrində ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 avqust 2022-ci il*

## Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin avqust ayı üzrə şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən avqustun 5-də Quba şəhərində vətəndaşlarla görüşüb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdən öncə nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Vətəndaş qəbulunda Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının sakinləri iştirak ediblər.

Qəbul zamanı vətəndaşların nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərinə baxılıb.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal həllini tapıb.

Nazirliyin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

# Qafqaz Müsəlmanları İdarəsi Azərbaycanın Britaniyadakı səfirliyinə qarşı törədilən təcavüz aktı ilə bağlı bəyanat yayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin binasına qarşı törədilən təcavüz aktı ilə bağlı bəyanat yayıb. İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bəyanatda deyilir:

"Qafqaz Müsəlmanları İdarəsi avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin binasına qarşı törədilən təcavüz aktını narahatlıq hissi ilə qətiyyətlə pisləyir və öncədən hazırlanmış, siyasi məqsədli terror, vandalizm aktı kimi qiymətləndirir. Bu hadisə Azərbaycan Respublikasına, ümumən beynəlxalq hüquqa zidd təxribat aktıdır. Aşkar şəkildə dindən sui-istifadə edən "Mehdinin xidmətçiləri" adlı radikal qruplaşmanın müstəqil Azərbaycanın suverenliyini və atributunu - dövlət bayrağını hədəf alması, aksiyanın dini şüarlar və məzhəbi tələblərlə müşayiət olunması dindən sui-istifadə və nifrətə çağırış kimi dəyərləndirilə bilər.

Azərbaycan dinlər və məzhəblərarası dostluq, qardaşlıq, anlaşma mühitinin hökm sürdüyü nadir ölkələrdəndir. Ölkəmiz öz milli-mənəvi dəyərlərinə yüksək ehtiramı, dini irsinə, ənənələrinə ali diqqəti ilə tanınan, bəşəri dəyərlərə istinad edən hüquqi-demokratik, dünyəvi dövlətdir. Məzhəb ayrı-seçkiliyi və dini dözümsüzlük, dini radikallıq və ksenofobiya təzahürləri Azərbaycan cəmiyyətinə yaddır. Azərbaycanda müsəlmanlarla yanaşı pravoslavlar, katoliklər, yəhudilər, bütün dini və milli azlıqlar öz mədəni dəyərlərini inkişaf etdirir, dini ayin və ibadətlərini azad həyata keçirirlər. Biz öz tolerant, multikultural həyat tərzimizi birgəyaşayış modeli olaraq dünyaya təqdim edirik.

Ölkəmizə qarşı təxribatların arxasında dayanan və təşkilində iştirak edən qüvvələr bilməlidirlər ki, Azərbaycan cəmiyyətində radikal, ekstremist qüvvələrə, onların destruktiv ideologiyalarına yer yoxdur və Azərbaycan dindarları heç vaxt belə qüvvələrin məkrli təxribatlarının ardınca getməyəcəklər. Azərbaycan bayrağına siyasi sifarişlə, din, məzhəb təəssübkeşliyi bəhanəsi ilə həqarət olunması yolverilməz təxribatdır və ümidvarıq ki, Böyük Britaniya hökuməti hadisə ilə bağlı lazımi ölçü götürəcəkdir. Düşmən qüvvələr Zəfərimizin əsas mənbəyinin milli, dini birliyimizin olduğunu gözəl bilir, bu səbəbdən məhz bu birliyi hədəf alırlar. Heç bir qüvvə güclü, sarsılmaz Azərbaycan dövlətinin bayrağını endirə, mənəviyyatımıza, birliyimizə, mənəvi ənənələrimizə xələl gətirə bilməz. Əhli-Beytə ehtiramın uca tutulduğu, islami dəyərlərə yüksək qiymət verildiyi ölkəmizdə milli-dini vəhdətimizə heç kim xələl gətirə, nifaq sala bilməz. Milli-mənəvi dəyərlər bizim ümummilli sərvətimizdir. Bütün qələbələrimizin kökündə tarixən qoruyub saxladığımız bu dəyərlər durur və Azərbaycan bu irsə istinadən hər zaman qələbələr qazanacaq, yeni tarixi Zəfərlərə imza atacaqdır, İnşallah!"

# Britaniyanın müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb

Avqustun 5-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, bir gün əvvəl Londondakı Azərbaycan səfirliyinə qarşı radikal dini qrup tərəfindən törədilən hücumla bağlı XİN-ə çağırılan Britaniya müvəqqəti işlər vəkilinə qəti etiraz bildirilib.

Bu təxribatın diplomatik nümayəndəliyin təhlükəsizliyinin təminatı məsələsini ciddi şəkildə üzə çıxardığını və ev sahibi ölkənin beynəlxalq hüquqi öhdəliklərinə uyğun olaraq təhlükəsizlik tədbirləri görməli olduğu qarşı tərəfin diqqətinə çatdırılıb. Belə halların bir daha təkrarlanmayacağına dair qarşı tərəfdən zəmanət tələb edilib. Baş vermiş vandallıq aktı ilə bağlı Birləşmiş Krallığın müvafiq qurumları tərəfindən hərtərəfli istintaq və araşdırmanın aparılması, cavabdeh şəxslərin məsuliyyətə cəlb edilməsi tələbi səsləndirilib.

Britaniya müvəqqəti işlər vəkili baş vermiş hadisə ilə bağlı dərin təəssüf hissi və narahatlıqlarını ifadə edib. Hadisə ilə bağlı istintaqın aparıldığı bildirilib.

# Rusiya və Türkiyə prezidentləri birgə bəyanat imzalayıblar

Soçidə Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında görüşün yekunlarına dair birgə bəyanat imzalanıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda liderlər regional və qlobal təhdidlərə baxmayaraq, Rusiya-Türkiyə münasibətlərini inkişaf etdirmək niyyətində olduqlarını bildiriblər. Tərəflər qarşılıqlı ticarətin həcmini artırmaq, nəqliyyat, kənd təsərrüfatı, sənaye, turizm və tikinti sektorlarında qarşılıqlı fəaliyyəti genişləndirmək üçün addımlar atmağı qərara alıblar.

Rusiya və Türkiyə prezidentlərinin bəyanatında qeyd olunur ki, tərəflər Suriya və Liviyanın ərazi bütövlüyü və siyasi birliyinin qorunub saxlanmasına tərəfdardırlar, terror təşkilatlarına qarşı birgə mübarizəni əlaqələndirməkdə əzmlidirlər.

Dövlət başçıları yüksəksəviyyəli əməkdaşlıq Şurasının növbəti iclasını Türkiyədə keçirmək barədə razılığa gəliblər.

# Dövlət Komitəsi Londonda Azərbaycan səfirliyinin radikalların hücumuna məruz qalmasını pisləyib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin avqustun 4-də radikal dini dəstənin hücumuna məruz qalmasını pisləyən bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir:

- Barbar və vandal düşüncənin təsiri altında olan qaragüruh dəstənin üzvlərinin səfirliyin yerləşdiyi binanın eyvanında üzərində şüarlar olan parçaların qaldırmasını və radikal dini şüarlarla çıxış etməsini kəskin şəkildə pisləyirik.

İslam dininə və onun ali dəyərlərinə zidd olaraq öz çirkin məqsədlərinə çatmaq üçün bu tip əməllərə yol verənlər bununla islam dininə zərbə vurmuş olurlar. Mütərəqqi islami dəyərlərə həqarətlə yanaşıb din adından sui-istifadə edənlərin heç bir mənəvi-əxlaqi, hüquqi normalara sığmayan hərəkətləri Azərbaycan cəmiyyəti, dini cameəsi, o cümlədən ölkəmizdə fəaliyyət göstərən dini konfessiyalar tərəfindən də qətiyyətlə pislənilir. İslam dünyasının bir parçası olan Azərbaycan dünyəvi dövlətdir. Ölkəmizdə dinimizə, islami dəyərlərə hərtərəfli diqqət, qayğı göstərilir. Dini etiqad azadlığının, multimədəni harmoniyanın əsas təminatçısı, milli-mənəvi dəyərlərin hamisi olan Prezident İlham Əliyev vətəndaşların dini inanclarının qorunmasını daim prioritet vəzifə kimi qarşıya qoyub. Tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən ölkəmizin dövlətdin modeli özündə islam dünyasının ən unikal və mütərəqqi dəyərlərini birləşdirir, xalqımızın və dövlətimizin inkişafına maneçilik törədə biləcək dini fanatizmi, radikalizmi və ekstremizmi rədd edir. İstər məzhəblər, istərsə də dinlərarası münasibətlərin səviyyəsinə görə Azərbaycan həm Şərq, həm də Qərb üçün uğurlu örnəkdir. Bu gün ölkəmizin dünyada mədəniyyətlər və dinlərarası dialoqun aktiv təşkilatçısı olduğu beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən etiraf olunan həqiqətdir. Heç bir dini qrup və dini cərəyan Azərbaycanın beynəlxalq aləmdəki bu imicinə və böyük iradə tələb edən fəaliyyətinin nəticəsinə xələl gətirə bilməz.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı açıqlamasında din pərdəsi altında törədilən, heç bir dini əqidəyə sığmayan, hüquqazidd avantürist hadisəyə ölkəmizin münasibəti ifadə olunub. Belə təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dövlətçiliyimizin əsaslarını heç bir vəchlə sarsıda bilməz və əminik ki, tez bir zamanda xalqımızın şərəf və qürur abidəsi sayılan bayrağımıza hörmətsizlik edənlər, səfirliyin binasında vandal əməllərə yol verənlər öz layiqli cəzalarını alacaqlar.

# İstənilən təxribat cavabsız qalmayacaq

## Baş verən hadisələrin səbəbi Ermənistanın qeyri-qanuni silahlı birləşmələrinin Azərbaycan ərazilərindən hələ də çıxarılmamasıdır

İkinci Qarabağ müharibəsində cəmi 44 günə məğlub olaraq Azərbaycan qarşısında diz çökən Ermənistan son vaxtlar yenə də təxribatlar törətməklə sülh müqaviləsini imzalamaqdan yayınır. Məğlub ölkə 2020-ci il 10 noyabr Bəyanatının müddəalarını pozmaqda davam edir. Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində baş vermiş sonuncu təxribat nəticəsində hərbi qulluqçumuzun həlak olması da bunu təsdiqləyir.

Təbii ki, hərbi qulluqçusunu itirən Qalib Ordu bu təxribata cavab verməli idi və kod adı "Qisas" olan əməliyyatla bunu etdi də...

### Bütün məsuliyyət Ermənistanın üzərinə düşür

Dünən Prezident İlham Əliyev də Fransa Prezidenti Emmanuel Makronla telefon danışığı zamanı baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib. Dövlət başçısı qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirən Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ünsürlərinin ərazimizdən çıxarılması təmin edilməlidir: "Lakin Ermənistan tərəfindən bu, hələ də təmin edilməyib. Bu isə öz növbəsində rəsmi İrəvan tərəfindən 2020-ci il 10 noyabr Bəyanatının müddəalarının pozulması və Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirməməsidir".

Azərbaycan Prezidenti deyib ki, üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq, Rusiya Müdafiə Nazirliyi ilə əldə olunmuş razılaşma nəticəsində Laçın dəhlizinə alternativ yeni yolun marşrutu müəyyən edilib və Azərbaycan tərəfindən bu yolun inşası başa çatdırılmaq üzrədir. Bu işlər yekunlaşan kimi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən Rusiya sülhməramlı qüvvələrinin həmin yola dislokasiya olunması nəzərdə tutulur.

Bütün bunlar azmış kimi Ermənistan Xarici İşlər Nazirliyi avqustun 3-də məlumat yayaraq Azərbaycanı üçtərəfli Bəyanatı pozmaqda, Ermənistan və Qarabağı birləşdirən Laçın dəhlizi üzərində birtərəfli dəyişiklik etməkdə ittiham edib. Bəyanat bir daha ermənilərin riyakarlığını, yalanlarını ortaya qoyur.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan XİN-in Azərbaycan tərəfini əsassız şəkildə ittiham edən 3 avqust tarixli bəyanatını qətiyyətlə rədd edir. Şərhdə qeyd olunur ki, Ermənistan XİN-in Azərbaycanı üçtərəfli Bəyanatı pozmaqda ittiham etməsi riyakarlıqdan başqa bir şey deyil: "Xatırladırıq ki, Ermənistan tərəfindən üç ölkə liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli bəyanatın müddəalarının yerinə yetirilmədiyi, xüsusilə də erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazilərindən çıxarılmadığı dəfələrlə tərəfimizdən bəyan edilib. Üçtərəfli bəyanatın 4-cü maddəsinə əsasən "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir".

Bildirilib ki, qeyri-qanuni erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərində mövcudluğuna dair Azərbaycan tərəfində olan çoxsaylı dəlillərə əlavə olaraq, bu fakt erməni rəsmiləri tərəfindən də etiraf edilib. Belə ki, Ermənistan silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavini Saak Saakyanın bu il 29 iyun tarixində hərbi xidmətə çağırılan vətəndaşların valideynləri ilə görüşdə "Qarabağ bölgəsində erməni müddətli hərbi xidmətçilərinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları ilə əvəzlənəcəyinə" dair söylədikləri, habelə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın 19 iyul 2022-ci il tarixli müsahibəsində "Ermənistan silahlı qüvvələrinin bölmələrinin Qarabağdan çıxarılması bu ilin sentyabr ayında başa çatacaq", söyləməsi Ermənistanın üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, hələ də silahlı hərbi birləşmələrini qonşu dövlətin ərazisində qeyri-qanuni saxladığını bariz şəkildə göstərir.

### Ermənistan öhdəliklərini yerinə yetirmir

Şərhdə o da vurğulanıb ki, yaşanan son gərginliyin səbəbi, məhz qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərində mövcudluğu və təxribatlara əl atmasıdır. 3 avqust tarixində Azərbaycan əsgərinin şəhid olması ilə nəticələnən qanlı insident də məhz Ermənistanın öhdəliklərinin yerinə yetirməməsinin nəticəsidir: "Üçtərəfli Bəyanatın 6-cı bəndinə istinad edərək, Azərbaycanı müvafiq müddəanın pozuntusunda ittiham edən Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, Laçın dəhlizi üzrə yeni yolun inşası razılaşdırılmış marşrut üzrə artıq uzun aylardır ki, gedir və Ermənistan tərəfi bu yol ilə bağlı kifayət qədər məlumatlıdır".

Nazirliyin məlumatında o da qeyd edilir ki, əgər Ermənistan tərəfi üçtərəfli Bəyanatın digər müddəaları kimi bu öhdəliyin də həyata keçirilməsini müxtəlif bəhanələrlə ləngitmək məqsədini güdürsə, bu, bir daha rəsmi İrəvanın qeyri-konstruktiv və üçtərəfli bəyanatların və digər razılaşmaların icrasına münasibətdə pozucu fəaliyyətinin bariz nümunəsidir.

"Azərbaycanı "aqressiv fəaliyyətdə" ittiham edən Ermənistan XİN-ə xatırladırıq ki, hərbi birləşmələri 30 ilə yaxın qonşu dövlətin ərazilərinin işğalını həyata keçirən, işğal siyasətinə son verildikdən sonra hələ də qanunsuz silahlı dəstələrini Azərbaycan ərazilərindən çıxarmayan məhz Ermənistandır. Azərbaycan isə öz ərazilərinin təhlükəsizliyini və bütövlüyünü qanuni əsaslarla təmin edir", - deyə açıqlamada vurğulanır.

### "Ermənistan öz xislətinə uyğun olaraq hər şeyi baş-ayaq təqdim edir"

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Sahib Alıyev qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan 2020-ci ilin 10 noyabrında imzalanan üçtərəfli Bəyanatda üzərinə götürdüyü öhdəliyə əməl etməsəydi, Ermənistanın havadarı kimi tanınan bəzi dövlətlərin səs-küyündən qulaq tutulardı.

Onun sözlərinə görə, indiyədək heç bir dövlət Azərbaycanın birgə bəyanatda üzərinə götürdüyü öhdəliyi yerinə yetirməməsi haqda heç nə deməyib, yəni belə bir hal da yoxdur. Deputat qeyd edir ki, bu bəyanatla üzərinə düşdüyü öhdəlikləri yerinə yetirməyən məhz Ermənistandır. Əslində Qarabağdakı son gərginliyin səbəbi də budur. Ermənistan hələ də öz ordusunun tör-töküntülərini Qarabağda saxlayır. Laçın yolunun üçtərəfli Bəyanatda qeyd edildiyi kimi, işləməsinə baxmayaraq, Zəngəzur dəhlizinin reallaşdırılmasını hər cür əngəlləməyə çalışan yenə də Ermənistandır. Hətta Azərbaycanın vaxtından əvvəl Laçın rayonundan keçən yeni yolu inşa etməsinə baxmayaraq, qarşı tərəf burada da prosesi gecikdirməyə çalışır. Buna görə də Ermənistan XİN-in guya Azərbaycanın üçtərəfli Bəyanata əməl etməməsi ilə bağlı bildirdikləri cəfəngiyyat ağ yalandır: "Bu, yenə öz xislətlərinə uyğun hər şeyi baş-ayaq təqdim etmək cəhdidir".

Sahib Alıyev deyir ki, Ermənistan XİN rəhbəri də, Baş nazir də Rusiyanın Qarabağdakı hərbi kontingentinə iradlar bildirməyə də başlayıb: "Onların hərbi kontingentin necə fəaliyyət göstərməsindən asılı olmayaraq, irad bildirməyə haqları yoxdur, çünki burada Azərbaycan torpağındakı Rusiya hərbçilərindən söhbət gedir. Artıq Qarabağdakı Rusiya hərbi kontingentinin statusu, fəaliyyəti və ya fəaliyyətsizliyini də ancaq və ancaq Azərbaycan qiymətləndirə bilər. Rusiya sülhməramlılarının üzərinə düşən vəzifəni yerinə yetirməməsinin nəticəsidir ki, bu günlərdə Azərbaycan Ordusunun bir əsgəri terrorçuların açdığı atəş nəticəsində Qarabağda şəhid oldu. Ardınca da bu proseslər baş verdi".

### Təcavüzkar yenə də köhnə ampluasındadır

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu qeyd edir ki, 2020-ci ilin 10 noyabr birgə Bəyanatının şərtləri yekun sülh sazişinin imzalanmasına xidmət etməli idi.

Deputatın sözlərinə görə, Azərbaycan hər zaman münaqişənin dinc yolla tənzimlənməsinin tərəfdarı olduğunu öz davranışları, atdığı addımları ilə aydın göstərib. Ermənistan isə 30 il boyunca torpaqlarımızı işğal altında saxladı. İndi də ölkəmizə qarşı hərbi təxribat və terrorlarını davam etdirir.

Deputat bildirir ki, Rusiyanın vasitəçiliyi ilə imzalanan birgə Bəyanat regionda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində mühüm addım kimi qiymətləndirilə bilərdi. Lakin Ermənistan həmişə olduğu kimi yenə təcavüzkar mövqeyində qalmaqda, Azərbaycana qarşı təxribatlarını davam etdirməkdədir. Ermənilərin yaşadıqları ərazilərə Rusiya sülhməramlılarının yerləşdirilməsinə paralel olaraq erməni silahlı birləşmələri Azərbaycan torpaqlarını tərk etməli idi. Lakin bu, baş vermədi. Təbii ki, ermənilərin quldur, cinayətkar, qanunsuz hərbi dəstələrinin Azərbaycan ərazisində olması milli, hərbi və siyasi təhlükəsizliyimizə birbaşa təhdid yaradırdı.

Deputat vurğulayır ki, Azərbaycan Prezidenti dəfərlərlə qanunsuz separatçı erməni silahlı birləşmələrinin torpaqlarımızdan çıxmasını tələb edib. "Lakin Ermənistan tərəfi, Azərbaycan ərazisində yaşayan separatçı ermənilər 44 günlük müharibədən dərs çıxarmayaraq bizə qarşı təxribatlarını davam etdirirlər. Görünür, yeni vəziyyətdə separatizmi, hərbi cinayətlərini davam etdirmək üçün hansı imkanlara malik olduqlarını yoxlamaq istəyirlər. Azərbaycan yenə siyasi təmkin nümayiş etdirərək beynəlxalq vasitəçilər qarşısında bu məsələləri dəfələrlə qaldırıb. Lakin bu istiqamətdə Ermənistana və separatçılara hər hansı təzyiq müşahidə etmədik", - deyə deputat bildirib.

### Erməni separatçıları torpaqlarımızda qalaraq təxribatları davam etdirərlərsə...

Elşad Mirbəşiroğlu deyir ki, bunlar Azərbaycana ermənilərin təxribatlarının qarşısını almaq məqsədilə anti-terror əməliyyatları həyata keçirməyə leqal əsaslar verdi: "Bu barədə Ermənistana dəfələrlə xəbərdarlıq edilmişdi. Düşünürəm ki, Azərbaycan tam haqlı əsaslarla, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq öz təhlükəsizliyinə mövcud təhdidləri aradan qaldırmaq üçün addımlar atdı. Azərbaycan təmkin nümayiş etdirərək atdığı addımların öncədən siyasi, hüquqi əsaslandırmasını da təmin etmişdi".

Deputat vurğulayır ki, Azərbaycan beynəlxalq hüquq normalarına, eləcə də regionda sülhün və təhlükəsizliyin təmin olunması prinsiplərinə, yeni əməkdaşlıq arxitekturasının qurulması tələblərinə uyğun davranmaqdadır. Ermənistan isə həmişə olduğu kimi özünün təcavüzkar, işğalçı, terrorçu dövlət obrazını daha da gücləndirməkdədir. Bundan sonrakı mərhələdə Azərbaycan ərazisində qalan erməni separatçıları, Ermənistan Azərbaycanın avqustun 3-də sərt cavab reaksiyasından, antiterror əməliyyatından ciddi nəticə çıxarmalıdırlar. Artıq onların separatçı, terrorçu fəaliyyəti üçün heç bir imkan mövcud deyil.

Deputat deyir ki, artıq bu, Ermənistanda dərk edilir. Təsadüfi deyil ki, Paşinyan avqustun 4-də Nazirlər Kabinetinin iclasında Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında əlaqənin təmin edilməsinə razı olduqlarını bildirib. Bütün hallarda bu, Ermənistanın geri çəkilməsi kimi qiymətləndirilməlidir: "Erməni silahlı birləşmələri Azərbaycan ərazisində qalaraq təxribatlarını davam etdirərlərsə, ölkəmizin sərgiləyəcəyi davranış onların məhvinə gətirib çıxaracaqdır", - deyə deputat bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Türk Dövlətləri Təşkilatı Azərbaycanın Britaniyadakı səfirliyinə hücumun araşdırılması ilə bağlı çağırış edib




Türk Dövlətləri Təşkilatının rəsmi tviter səhifəsində Azərbaycanın London şəhərindəki səfirliyinə hücumla bağlı paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir: "Türk Dövlətləri Təşkilatının qurucu üzvü olan Azərbaycanın Londondakı səfirliyinə radikal dini qruplar tərəfindən edilən şiddətli və qəbuledilməz hücumu qınayırıq. Bu vandalizm aktının ətraflı araşdırılması üçün çağırış edirik".

# Özbəkistan XİN Azərbaycanın Londondakı səfirliyinə hücumu pisləyib

Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi avqustun 4-də Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı törədilmiş təxribat xarakterli hücumu pisləyən bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatda Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyinin avqustun 4-də Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı törədilmiş təxribat xarakterli hücumu qətiyyətlə pislədiyi bildirilib. "Biz diplomatik nümayəndəliklərin üzvlərinin həyatı və sağlamlığı üçün təhlükə yaradan hər hansı hərəkəti qətiyyən yolverilməz hesab edirik.

Biz bu hadisənin hərtərəfli araşdırılmasına və bu işdə əli olan bütün şəxslərin məsuliyyətə cəlb edilməsinə çağırırıq.

Özbəkistan tərəfi xaricdəki vətəndaşlarının təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsində qardaş Azərbaycana dəstəyini ifadə edir", - deyə bəyanatda qeyd olunub.

# Ordumuzun mövqeləri atəşə tutulub

Ötən sutka ərzində erməni silahlı birləşmələri tərəfindən mövqelərimiz ümumilikdə 12 dəfə atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bunlardan 3-ü Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər rayonunun Nərimanlı və Zərkənd yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərini atəşə tutmaqla baş verib.

Digər 9 hadisə isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Ağdam, Xocavənd və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərini fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəşə tutmaqla qeydə alınıb.

Şəxsi heyət və texnikamızda itki yoxdur.

Bütün hallarda ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Azərbaycan Ordusunun əsgərləri Laçında döyüş tapşırığını yerinə yetirərkən vəfat ediblər

Avqustun 5-i Laçın rayonunda çətin relyefli ərazidə xidməti döyüş tapşırığını yerinə yetirərkən sıldırım qayalıqlardan qopan qaya parçası Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Xudiyev Samir Səməd oğlu və əsgər Əliyev Tahir Çingiz oğlunun üzərinə düşüb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Nəticədə əsgər S.Xudiyev aldığı bədən xəsarətlərindən hadisə yerində vəfat edib. Müxtəlif bədən xəsarətləri almış və hospitala yerləşdirilmiş əsgər T.Əliyevin də həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

# İŞİMİZ, GÜZƏRANIMIZ

**"Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" karbohidrogen yataqlarından neftin, qazın və kondensatın hasilatı bu ilin əvvəlindən də ahəngdar və təhlükəsiz şəkildə davam edir. Birinci yarımillikdə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin daşıdığı xam neft və kondensat Ceyhan terminalında 148 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. "Şahdəniz" qazının ixracı da uğurla həyata keçirilir.**



## Hasilat sabit, ixrac ahəngdardır

### bp ilin birinci yarısının yekunlarını açıqlayıb

bp cari ilin birinci yarısının yekunlarına aid açıqlamasında bu və digər layihələrdə işlərin necə getdiyi barədə ətraflı məlumat verib. Belə ki, şirkətin əməliyyatçı olduğu AÇG layihəsi üzrə 6 ayda ümumi hasilat gündə orta hesabla 424 min barel, ümumilikdə təxminən 77 milyon barel, yəni 10 milyon ton olub. "Çıraq" platformasından gündəlik orta hasilat 25 min, "Mərkəzi Azəri"dən 108 min, "Qərbi Azəri"dən 109 min, "Şərqi Azəri"dən 62 min, "Dərinsulu Günəşli"dən 78 min və "Qərbi Çıraq"dan 42 min barel təşkil edib. Hazırda AÇG yataqlar blokunda 136 neft hasilatı, 37 su injektor və 8 qaz injektor quyusu istismardadır.

Birinci yarımillikdə "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi plana uyğun şəkildə irəliləyib. İkinci rübün sonuna layihə üzrə işlərin ümumilikdə 75 faizi tamamlanıb. Mühəndis-layihə, tədarük və istehsal-quraşdırma işləri ACE-dən ilk hasilatın 2023-cü ildə əldə olunması üçün qrafiklə davam edir.

6 ay ərzində AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin Neft Daşlarındakı qurğu vasitəsilə 2 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulub.

Səngəçal terminalının texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və kondensat, "Şahdəniz" qazı üçün təqribən 81 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG-nin səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetr təşkil edir. İlin birinci yarısında terminaldan təxminən 114 milyon barel neft və kondensat ixrac olunub. Bunun 107 milyon bareli BTC və təxminən 7 milyon bareli QİBK (Qərb İxrac Boru Kəməri) marşrutu ilə daşınıb.

Qaz terminalından, əsasən, CQBK (Cənubi Qafqaz Boru Kəməri), genişləndirilmiş CQBK sistemi, terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama şəbəkəsi ilə birləşdirən Azərbaycana məxsus kəmərlə nəql edilir. İlin ilk 6 ayı ərzində terminaldan həmçinin gündəlik orta hesabla təxminən 69 milyon standart kubmetr (təxminən 2 milyard 440 milyon standart kubfut) "Şahdəniz" qazı göndərilib.

Azərbaycan, Gürcüstan və Türkiyədən keçən BTC kəmərinə Səngəçal terminalından vurulan neftin Ceyhanda yüklənildiyi 5000-ci tankerin yola salınması da sözügedən vaxta təsadüf edib. Bu, martın 23-də olub. 2006-cı ilin ortalarında istismara veriləndən cari ilin ikinci rübünün sonunadək isə kəmərlə təqribən 516 milyon tondan çox (3,87 milyard barel) xam neft daşınıb və bu həcm Ceyhanda 5087 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC boru kəməri, əsasən, AÇG nefti və"Şahdəniz" kondensatı, bundan əlavə, Xəzərin digər regional xam neft və kondensat həcmlərini də nəql edir.

"Şahdəniz"dən Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə və Avropadakı alıcılara qaz çatdırılması ahəngdar şəkildə həyata keçirilir. 6 ayda yataqdan - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 13 milyard standart kubmetr qaz və 2 milyon ton (18 milyon bareldən artıq) kondensat alınıb. "Şahdəniz"in mövcud qurğularının hasilat gücü hazırda gündə təxminən 70 milyon (ildə 25 milyarddan artıq) standart kubmetrdir. "İstiqlal" və "Maersk Explorer" qurğuları "Şahdəniz-2"dən hasilatı və onun sonrakı tədrici artımını təmin etmək üçün indiyədək 21 quyu qazıb və bunlardan 19-nu tamamlayıb.

Xatırladaq ki, "Şahdəniz" qazını daşıyan CQBK 2006-cı ilin sonlarında istismara verilib və həmin vaxtdan başlayaraq Azərbaycana, Gürcüstana və Türkiyəyə mavi yanacaq çatdırır. Genişləndirilmiş CQBK isə kommersiya qaz həcmlərini Türkiyəyə 2018-ci ilin iyun ayında, Avropaya 2020-ci ilin dekabr ayında ixrac etməyə başlayıb. Bu ilin ilk altı ayında CQBK-nın ixrac üçün gündəlik orta ötürücülük gücü 56,9 milyon kubmetr olub.

Yarım ilin yekunlarında bp Azərbaycan vətəndaşı olan işçilərinin sayını da açıqlayıb. Belə ki, müddətli müqavilə əsasında işləyənlər də daxil olmaqla, onların sayı 2268 nəfərdir. 2018-ci ilin ortalarından bp-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edir. İxtisası olmayan işçilərin isə hamısı yerli vətəndaşlardır.

bp və tərəfdaşları mühüm sosial investisiya layihələri həyata keçirməyə də davam edirlər. Bu layihələrə təhsil proqramları, yerli icmalarda bacarıq və qabiliyyətlərin yaradılması vasitəsilə yeni imkanların açılması, icmalarda sosial infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinə çıxışın təmin edilməsi və təlim vasitəsilə yerli müəssisələrə kömək, mədəni irs və idmanın inkişafına dəstək, eləcə də hökumət qurumlarına texniki yardım daxildir. 2022-ci ilin birinci yarısında bp əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları ilə birlikdə Azərbaycanda sosial investisiya layihələrinə 1,3 milyon dollardan artıq vəsait xərcləyib. bp belə hesab edir ki, Xəzərdəki layihələrin uğuru həm də əməliyyatçının region ölkələrinin əhalisi üçün bu layihələr vasitəsilə hiss edilən faydalar yaratmaq bacarığından asılıdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Layihənin icrası müzakirə edilib



Gəncə Şəhər İcra Hakimiyyətində şəhərin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində görülən işlər müzakirə olunub.

Müzakirədə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və "Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov iştirak ediblər.

Layihə çərçivəsində görülən işlər barədə görüş iştirakçılarına məlumat verilərək bildirilib ki, şəhərin su təchizatı sisteminin yenidən qurulması üzrə işlərin 43, kanalizasiya sisteminin yenidən qurulması üzrə 40 faizi başa çatıb. Qeyd edilib ki, Gəncənin mərkəzləşdirilmiş su təchizatı sisteminin yenidən qurulması zamanı sutəmizləyici qurğu da inşa ediləcək. Bu isə çirkli suların təmizləndikdən sonra texniki su kimi istifadəsinə imkan verəcək.

Görüşdə o da bildirilib ki, layihənin icrası zamanı baş verən ləngimələr, şəhərin müxtəlif ərazilərində aparılan qazıntı işlərindən sonra küçələrin asfalt örtüyünün bərpa edilməməsi, müvafiq işlərin görüldüyü bir sıra ərazilərdə asfalt örtüyünün çökməsi əhalinin haqlı narazılığına səbəb olub. Qeyd olunub ki, cari il ərzində layihə çərçivəsində işlərin davam etdirilməsi və mövcud çatışmazlıqların mərhələli şəkildə aradan qaldırılması istiqamətində müvafiq tədbirlər həyata keçiriləcək.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Qarabağ və Quba-Xaçmaz iqtisadi rayonları üzrə peşə hazırlığı üçün prioritet peşə və ixtisaslar müəyyənləşib

Yaxın vaxtlarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən Bərdə və Quba rayonlarında da Peşə Hazırlığı Mərkəzləri istifadəyə veriləcək.

Həmin mərkəzlərdə peşə tədrisinin əmək bazarına uyğun qurulması üçün agentlik tərəfindən ekspres əmək bazarı araşdırması aparılıb. Araşdırma zamanı 40 mikro, 130 kiçik, 70 orta və 7 iri işəgötürən arasında sorğu keçirilib. Nəticə olaraq Qarabağ və Quba-Xaçmaz iqtisadi rayonları üzrə prioritet peşə və ixtisaslara olan tələbat müəyyən edilib.



Yeni peşə hazırlığı mərkəzlərində tədrisi təşkil olunacaq 30 ixtisas müəyyən olunub. Onların sırasına Qarabağ iqtisadi rayonu üzrə - toxumçuluq, şitilçilik və tingçilik, kənd təsərrüfatı məhsullarının saxlanması və anbarlanması üzrə logistika, kompüter təmiri və xidməti mütəxəssisləri, baytar köməkçisi, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, kombi ustası, təmirçi-çilingər, mebel ustası, avtomobil diaqnostikası və təmiri ustası, təchizat üzrə agent, ərzaq və qeyri-ərzaq mallarının satıcısı, nəzarətçi-xəzinədar, qəssab, elektrik və avtoarabacıqların sürücüsü, yanacaqdoldurma stansiyalarının operatoru, Quba-Xaçmaz iqtisadi rayonu üzrə - elektron ticarətçi, bərbər, vizajist, manikürçü, lazer ustası, ikinci dairə üzrə elektrik quraşdırıcısı, kompüter şəbəkə inzibatçısı, barmen, barista, aşpaz, çağrı mərkəzi üzrə operator, xərrat-dülgər və parket ustası, CNC operatoru (taxta işləri üzrə), kənd təsərrüfatı maşın və avadanlıqlarının təmiri üzrə çilingər və dağ-xizək turizmi üzrə bələdçi peşələri daxildir.

Növbəti mərhələdə qeyd edilən peşə və ixtisaslar üzrə tədris proqramlarının və bu proqramların əsasında təlim-tədris materiallarının hazırlanması nəzərdə tutulub.

## ADAU ilə Türkiyənin Yozgat Bozok Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

Azərbaycan Dövlət Aqrar Unversiteti (ADAU) dünyanın inkişaf etmiş ölkələrinin universitetləri ilə əməkdaşlığı daha da genişləndirir. Bu əməkdaşlıq siyahısına daha bir universitet də əlavə edilmişdir. Qardaş Türkiyənin Yozgat Bozok Universitetinin rektoru, professor Ahmet Karadağ başda olmaqla, universitetin nümayəndə heyəti bu məqsədlə ADAU-da olmuşdur.



Azərbaycan Dövlət Aqrar Universitetində türkiyəli qonaqlarla əməkdaşlıq əlaqələrinin qurulması ilə bağlı görüş keçirilmişdir. Görüşdə universitetin rektoru, AMEA-nın müxbir üzvü professor İbrahim Cəfərov çıxış edərək ölkəmizdə yeganə kənd təsərrüfatı mütəxəssisləri yetişdirən bu ali təhsil ocağının xarici əlaqələri, ikili diplom proqramları və maddi-texniki bazası haqqında ətraflı məlumat vermişdir.

ADAU-nun fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirildikdən sonra professor Ahmet Karadağ təmsil etdiyi universitet haqqında geniş məlumat vermişdir. O, toxumçuluq sahəsində birgə layihələrin reallaşdırılması, professor-müəllim heyəti və doktorantlar üçün qarşılıqlı akademik səfərlərin, tələbə mübadiləsinin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırmışdır. Hər iki universitet arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Sonra qonaqlar ADAU-nun Biotexnologiya Mərkəzində olmuşlar. Məlumat verilmişdir ki, Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində yaradılmış yeni Biotexnologiya Mərkəzində bitkilərin müxtəlif stres amillərinə, xəstəliklərə qarşı davamlılığının müəyyən edilməsi üçün molekulyar analizlər həyata keçirilir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## BVF-nin bədbin proqnozları fonunda Azərbaycan iqtisadiyyatının nikbin perspektivləri



Dünya iqtisadiyyatının perspektivlərini proqnozlaşdırmağa cəhd edən Beynəlxalq Valyuta Fondu (BVF) bu ilin birinci yarısının yekunlarına aid təqdim etdiyi hesabatdakı rəqəmlər və analiz nikbin deyil, əksinə, daha çox bədbin gələcəyə köklənib.

BVF-nin ekspertləri etiraf edirlər ki, qlobal iqtisadiyyat elə çətinliklərlə üzləşir ki, nikbin və ürəkaçan proqnozlar vermək çətindir. Reallıqlar onu göstərir ki, dünya tədricən qlobal böhranın girovuna çevrilmək ərəfəsindədir. 2021-ci ildə gözlənilən bərpa ilə yanaşı, 2022-ci ildə risklər də reallaşmağa başlamış və iqtisadi reallıqlar qaranlıq hadisələrin dumanına bələnmişdir. Çin və Rusiyadakı yavaşımalar səbəbindən bu ilin ikinci rübündə qlobal istehsal azalmış, ABŞ-ın istehlak xərcləri gözləntilərin altında qalmışdır. Təhlilçilər bildirirlər ki, bütün dünyada (xüsusilə ABŞ və inkişaf etmiş Avropa ölkələrində) gözləniləndən yüksək inflyasiya maliyyə şərtlərinin sərtləşməsinə gətirib çıxarmışdır. Bir yandan Çində COVID-19 epidemiyası və özünütəcrid tədbirləri, digər tərəfdən Rusiya-Ukrayna qarşıdurmasının mənfi nəticələri üzündən gözləniləndən daha kəskin iqtisadi mənzərə yaranmışdır. Nəticədə iqtisadi artımın baza proqnozu keçən ilki 6,1 faizdən bu il 3,2 faizə qədər düşəcəyi ehtimal edilir. Ekspertlər Avropa üçün proqnozların bu dərəcədə azalmasını Ukraynada baş verənlərin nəticələri və pul siyasətinin sərtləşdirilməsi ilə əlaqələndirirlər.

Təhlükəli məqamlardan biri də onunla bağlıdır ki, Ukraynada davam edən gərginlik Avropaya Rusiyadan qaz idxalının qəfil dayanması ehtimalını yaradır. Üstəlik o da ehtimal edilir ki, əmək bazarlarında gözlənilən sıxlıq artarsa, o zaman inflyasiyanın düşməsi çətin olacaq. Qlobal maliyyə şərtlərinin sərtləşdirilməsi isə inkişaf etməkdə olan bazarlarda və iqtisadiyyatlarda borc sıxıntısına səbəb ola bilər. Bunun davamı kimi qlobal miqyasda gedən geosiyasi parçalanmanın qlobal ticarəti və əməkdaşlığı zəiflədəcəyi təhlükəsi də var. Ümumiyyətlə, perspektivlərə nəzər saldıqda onu demək mümkündür ki, risklərin reallaşdığı ehtimal olunan alternativ ssenaridə inflyasiya yüksəlməyə davam edəcək. Odur ki, BVF-nin ekspertləri belə hesab edirlər ki, artan qiymətlərin bütün dünyada həyat standartlarını aşağı salmaqda davam etdiyi bir zamanda inflyasiyanın cilovlanması siyasətçilər üçün əsas prioritet olmalıdır.

Bütün bunların fonunda isə Azərbaycan iqtisadiyyatı dinamik inkişaf edir. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, cari ilin yanvar-iyun aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 63,4 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 0,2, qeyri neft-qaz sektorunda isə 9,6 faiz artmışdır.

Əlavə dəyərin 53,3 faizi sənaye, 7,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 5,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,8 faizi tikinti, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi informasiya və rabitədə, 14,5 faizi isə digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,6 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 6304,9 manata çatmışdır.

DSK onu da xəbər verir ki, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 6 ay ərzində 42,2 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 0,6, qeyri neft-qaz sektorunda isə 11,5 faiz artmışdır.

Başqa bir açıqlamaya əsasən, hesabat dövründə əsas kapitala 6 milyard 299,6 milyon manat məbləğində, yaxud 2021-ci iolin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çox vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 20,7 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 18,5 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 3 milyard 781,3 milyon manatı və ya 60 faizi məhsul istehsalı və 2 milyard 131,2 milyon manatı (33,8 faizi) xidmət sahələrinə, 387,1 milyon manatı (6,2 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Zəngəzur dəhlizinin tikintisi 57 faiz icra olunub

Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və uzunluğu 123,6 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi sürətlə davam edir.

Avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib və I texniki dərəcəli olaraq beynəlxalq magistral normalara uyğun inşa olunur. Artıq layihə üzrə işlərin ümumi 57 faizi yerinə yetirilib. Hazırda yolun 0-22 və 44-48-ci kilometrlik hissələrində yol geyiminin tikintisi işləri, 25,9-115-ci kilometrlik hissəsində isə qazma, dolğu və süni qurğuların tikintisi işləri görülür.

Yol boyu layihəyə uyğun ümumi uzunluğu 6 kilometr təşkil edən və şərti olaraq T1, T2 və T3 adlandırılan 3 avtomobil tunelinin inşası da aparılır. Tunellər üzrə işlərin yerinə yetirilməsi 37 faizdir.

Ortalama uzunluğu 1822 metr olan T2 tunelinin sol istiqaməti üzrə ümumi 985,5, sağ istiqaməti üzrə isə ümumi 1166,35 metr məsafədə qazma və püskürtmə beton işləri yekunlaşıb. Ortalama uzunluğu 3170 metr olan T3 tunelinin sol istiqaməti üzrə 1398 metr, sağ istiqaməti üzrə 1433 metr məsafədə qazma və püskürtmə beton işləri başa çatıb.

"İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, AAYDA-nın rəhbərliyinin nəzarəti altında həyata keçirilən tikinti işlərinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.





# Müstəqil siyasətin leytmotivi

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, zəngin təbii ehtiyatları ola-ola əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya indi Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Bütün bu uğurlar isə cəmi 30 ildə əldə edilib.

Son 19 ildə isə İlham Əliyevin yürütdüyü siyasətlə Azərbaycan iqtisadi və siyasi müstəqilliyə sahib qüdrətli dövlət kimi beynəlxalq nüfuzunu daha da artırıb. Bu bir həqiqətdir ki, İlham Əliyev hər zaman yürütdüyü siyasətdə Azərbaycanın dövlət maraqlarını üstün tutub və milli mənafelərimizin müdafiəsini başlıca vəzifələrdən biri hesab edib. Bu gün də bu qətiyyətli siyasət uğurla davam etməkdədir.

İki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu: Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı daha da gücləndirdi, dövlətimizin nüfuzunu bir qədər də artırdı.

İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır.

Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Hər bir mötəbər beynəlxalq təşkilatla əməkdaşlıq Azərbaycanın xarici siyasət kursunda əsas yerlərdən birini tutur. Təcrübə göstərir ki, rəsmi Bakının bu məsələdə ortaya qoyduğu mövqe həm də respublikamızın yürütdüyü xarici siyasətin məzmununu nümayiş etdirir. Bu məzmun isə Azərbaycanın siyasi kursunun tamamilə müstəqil olduğunu, milli maraqlarımızı, dövlətin qlobal miqyasda mövqelərini layiqincə qoruduğunu göstərir.

Son onillikdə qlobal tərəfdaşlığın, sivilizasiyalararası əməkdaşlığın ən səmərəli platformasına çevrilən Azərbaycan çox mühüm forumlara, konfranslara evsahibliyi edir, irəli sürdüyü qlobal miqyaslı təşəbbüslər beynəlxalq birlik tərəfindən daim dəstəklənir.

Azərbaycan həm də nüfuzlu beynəlxalq təşkilatlara sədrlik edir və üzərinə düşən öhdəliyi uğurla reallaşdırır. Təkcə BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına ölkəmizin sədrliyini nümunə kimi göstərmək olar. 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı dünyadakı mövcud təşkilatlar arasında istər tarixi, istər üzvlərinin sayı baxımından kifayət qədər sanballı qurumdur. İlham Əliyevin təşkilata sədrliyi dövründə irəli sürdüyü qlobal miqyaslı təkliflərin beynəlxalq birlik tərəfindən təqdir edilməsi, müxtəlif qərarların qəbul olunması Qoşulmama Hərəkatının nüfuzunu daha da yüksəldib.

Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən aparıcı ölkələri ilə strateji tərəfdaşlıq münasibətlərinin qurulması da əsas prioritetlərdəndir. Hazırda Azərbaycanın dünyanın fövqəlgücləri hesab olunan ölkələrlə siyasi və iqtisadi əlaqələri yüksək səviyyədədir. Təkcə Amerika Birləşmiş Ştatları ilə olan əlaqələrə nəzər yetirsək görərik ki, Azərbaycan etibarlı tərəfdaş missiyasını uğurla gerçəkləşdirir. Rəsmi Bakı xarici siyasət kursunda ABŞ-la münasibətlərə hər zaman xüsusi önəm verir və həmçinin Birləşmiş Ştatlar da Azərbaycanla münasibətləri daha da genişləndirmək üçün müəyyən addımlar atır. Son 20 ildə demokratları və ya respublikaçıları təmsil etməsindən asılı olmayaraq, dünyanın fövqəldövlətinə rəhbərlik etmiş prezidentlər və onların administrasiyaları Azərbaycanla münasibətlərə yüksək ehtiramla yanaşıblar. Rəsmi Vaşinqton Azərbaycanı Cənubi Qafqazın lider dövləti kimi qəbul edərək həm regional, həm də qlobal problemlərin həllində yaxın tərəfdaşı kimi yüksək qiymətləndirir.

Mövcud əlaqələrin getdikcə daha da dərinləşməsinə, şaxələnməsinə mühüm töhfə verən ən əsas amil isə iki ölkə prezidentlərinin qarşılıqlı səmimi münasibətləridir. ABŞ Prezidenti Co Baydenin son 4 ayda İlham Əliyevə ünvanladığı 3 məktub, Azərbaycan Prezidentinin 4 iyul ABŞ-ın Müstəqillik Günü münasibətilə Co Baydenə məktubu bunu bir daha təsdiqləyir. Bütün məktublarda prezidentlər əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını bildirərək vurğulayırlar ki, davamlı tərəfdaşlıq və əməkdaşlığa hər zaman sadiqdirlər.

ABŞ Prezidentinin hər 3 məktubunda qeyd edilən fikirlərə əsaslanaraq deyə bilərik ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyinə və suverenliyinə öz dəstəyini bir daha təsdiqləyir, Ağ Ev İlham Əliyevin qətiyyətli siyasi kursunu təqdir edir. Ən mühüm məqam isə odur ki, ABŞ İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıq, sülhün və təhlükəsizliyin təminatı və Ermənistanla sülh sazişinin bağlanması prosesində İlham Əliyevin atdığı addımları, irəli sürdüyü təşəbbüsləri dəstəkləyir. Bunu Co Baydenin İlham Əliyevə Müstəqillik Günü münasibətilə ünvanladığı məktubdakı fikirləri də təsdiqləyir. ABŞ Prezidenti bildirir ki, indi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. ABŞ bütün Qafqaz və trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və ölkəmizin iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır. Göründüyü kimi, dünyanın super dövləti olan ABŞ İlham Əliyevin postmüharibə dövründə yürütdüyü siyasətə öz dəstəyini nümayiş etdirir.

Qalib Komandan kimi bölgədə sülhün bərqərar edilməsini, yeni nəqliyyat-tranzit qovşağının və həmçinin yeni əməkdaşlıq platformalarının yaradılmasının təşəbbüskarı olan İlham Əliyevin təklifləri həm də Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirilir.

Son vaxtlar Avropa İttifaqının Azərbaycanla strateji tərəfdaşlığında yeni mərhələnin başlanması da bu prosesin tərkib hissəsidir. İyulun 18-də Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Azərbaycana səfəri, aparılan danışıqlar, imzalanmış yeni memorandum ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirdi. Avropa İttifaqı ilə münasibətlərin sağlam təməl əsasında qurulmasının nəticəsidir ki, ölkəmiz hazırda bu mötəbər beynəlxalq təşkilatın bir çox proqramlarında fəal iştirak edir.

İlham Əliyev tərəfindən yürüdülən müstəqil xarici siyasət Avropa İttifaqı ölkələri ilə bərabərhüquqlu, yaxın təmaslara söykənən harmonik münasibətlərin qurulmasına əsaslanır. Azərbaycanın geostrateji mövqeyi Avropa İttifaqına üzv dövlətlərin də ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirməyə marağını artırır. Aİ rəhbərliyi Azərbaycan Prezidentinin irəli sürdüyü qlobal miqyaslı təşəbbüsləri təqdir edir və ölkəmizlə münasibətlərin davamlı yüksəlişi üçün əlaqələri daha da şaxələndirir.

Bu bir həqiqətdir ki, enerji təhlükəsizliyi məsələləri hazırda heç vaxt olmadığı qədər mühüm önəm daşıyır. Azərbaycanın reallaşdırdığı qlobal layihələr isə Avropanın enerji xəritəsini tamamilə dəyişib. Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırıcısı kimi qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir.

Bütün bunlar İlham Əliyevin xarici siyasət strategiyasının uğurlu davamının və Azərbaycanın geosiyasi mövqeyinin getdikcə möhkəmləndiyinin bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Bizim həyət" layihəsi çərçivəsində Sabunçu rayonunda növbəti həyət abadlaşdırılıb











Avqustun 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Şamil Kamilov küçəsi, 5, 7, 9 və 11 ünvanlarında 850 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi, qaz, su və istilik xətləri yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 280 ədəd müxtəlifcinsli ağac və minlərlə kol əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" (green barriers) yaradılıb.

Yaşıl sədlər adi daşsarmaşığı kimi sarmaşan, sıx bitən və havadakı zərərli toz hissəciklərini effektiv şəkildə tutub-saxlaya bilən bitki növlərindən ibarətdir. Belə sədlərin əsasən ictimai yerlərin perimetrində, müvafiq olaraq hasarlar, söhbətgahlar və binaların üzərində əkilməsi nəzərdə tutulur ki, bunlar iynəyarpaqlı, həmişəyaşıl ağaclarla və digər bitkilərlə yanaşı, hava çirklənməsinin əhəmiyyətli dərəcədə azaldılmasına töhfə verəcək.

Vətən müharibəsinin 19 yaşlı şəhidi Əkbər Hüseynovun anası Tahirə Hüseynova həyətlərinin abadlaşdırılmasına görə, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya minnətdarlığını bildirib: "Həyətin vəziyyəti heç ürəkaçan deyildi. Nə uşaqlar, nə də böyüklər üçün istənilən şərait yox idi. Hazırkı vəziyyət çox ürəyimizcədir. Uşaqlar üçün yaradılan şəraiti isə xüsusilə bəyəndim. Sağlam şəraitdə böyüyən uşaqlar gələcəkdə Vətənin keşiyində dayanacaq, müxtəlif sahələrdə xalqa xidmət edəcəklər. Odur ki, belə faydalı və xeyirli layihənin həyata keçirilməsinə görə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür edirəm. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə isə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm".

Qeyd edək ki, "Bizim həyət" layihəsi çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

# Diplomatlar III Yay Düşərgəsində diaspor gənclərinin xalq diplomatiyasında rolundan danışıblar





Diaspor Gənclərinin Şuşada keçirilən III Yay Düşərgəsi çərçivəsində "Xalq diplomatiyasında və lobbi fəaliyyətinin qurulmasında diaspor gənclərinin rolu" mövzusunda panel iclası keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyovun moderatorluğu ilə aparılan panel iclasında Azərbaycanın Baş naziri, xarici işlər naziri və müxtəlif ölkələrdəki səfiri vəzifələrində çalışmış dövlət xadimi Həsən Həsənov, ölkəmizin Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev, Avropa Şurası yanında daimi nümayəndəmiz Fəxrəddin İsmayılov və Xarici İşlər Nazirliyinin Beynəlxalq təhlükəsizlik idarəsinin rəisi Yalçın Rəfiyev çıxış ediblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, xalq diplomatının malik ola biləcəyi cəhətlərə diqqəti cəlb edən məruzəçilər xaricdə yaşayan azərbaycanlı gənclərin siyasi və diplomatik biliklərə, Azərbaycanın tarixi və xalqımızın milli-mənəvi dəyərləri barədə geniş məlumata malik olmasının vacibliyindən danışıblar.

"Əgər siz yaşadığınız cəmiyyətlərdə Azərbaycanı təmsil etmək istəyirsinizsə, mütləq bu bilikləri mənimsəməlisiniz. Həmin biliklərə yiyələnməyin bir yolu da belə layihələrin təşkilindən keçir", - deyə Həsən Həsənov bildirib.

Səfir Vilayət Quliyev qeyd edib ki, Azərbaycanın keyfiyyətcə yeni diasporu yaranır. Bu baxımdan, diaspor nümayəndələrinin həm yaşadıqları ölkənin, həm də Azərbaycan dilini bilmələri vacibdir. Daha geniş əlaqələrə malik olduqları halda onlar həm o cəmiyyətə, həm də Azərbaycana faydalı olacaqlar.

Avropa Şurası yanında daimi nümayəndə Fəxrəddin İsmayılov diaspor gənclərini ünsiyyət bacarıqlarını artırmağa çağırıb.

Xarici İşlər Nazirliyinin Beynəlxalq təhlükəsizlik idarəsinin rəisi Yalçın Rəfiyev isə Azərbaycanın multikultural və tolerant ölkə olmasının diaspor təşkilatlarının ölkəmizi təbliğ etməsi üçün əlavə üstünlük olduğunu vurğulayıb.

Panel iclası qarşılıqlı fikir mübadiləsi ilə davam edib.

# Şəhid uşaqları üçün yay düşərgəsinin birinci mərhələsi yekunlaşıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sosial sifarişi və dəstəyi ilə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən şəhid uşaqları üçün təşkil edilən növbəti yay istirahət düşərgəsinin birinci mərhələsi başa çatıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, 70 nəfərdən ibarət ilk qrup iyulun 29-dan avqustun 3-dək Qubada yerləşən istirahət mərkəzində dincəlib.

Həmin müddət ərzində şəhidlərimizin övladları rayonun tarixi və gəzməli yerlərinə ekskursiya ediblər. Həmçinin bir sıra "Axtar-tap", "Bionika", "Ebru", "Mini Survivor" və s. kimi əyləncəli interaktiv təlimlərdə iştirak edərək öz bacarıqlarını inkişaf etdirmək imkanı qazanıblar.





Düşərgədə onlarla interaktiv oyunlarla yanaşı, su idmanı və istirahəti, eyni zamanda müxtəlif psixoloji seanslar təşkil edilib. Düşərgənin son günündə şəhid övladları peşəkar təlimçilərin təşkil etdiyi əyləncəli idman oyunları və "Xəmsə" intellektual təlimində iştirak edərək sertifikatlar əldə ediblər.

Növbəti mərhələdə daha 70 nəfər yay düşərgəsinə yola salınacaq. Layihə ümumilikdə ölkəmizin müxtəlif bölgələri üzrə 100-dək şəhid uşağını (valideynlərindən birinin müşayiət edəcəyi də nəzərə alınmaqla 140 nəfəri) əhatə edəcək.

# VIII "Muğam" Televiziya Müsabiqəsinə Şuşada yekun vurulub

## Qaliblər mükafatlandırılıb

Avqustun 5-də Şuşada Bülbülün ev-muzeyinin həyətində təşkil olunan VIII "Muğam" Televiziya Müsabiqəsinin final mərhələsi torpaqlarımızın azadlığı uğrunda qurban gedən şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.



















AZƏRTAC xəbər verir ki, müsabiqə Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilib.

İlk olaraq Xalq artisti Mənsum İbrahimovun ifasında "Qarabağ" mahnısı dinlənilib. Xan Şuşinskinin ifasında səslənən "Şuşanın dağları" mahnısının lent yazısı musiqi bayramına xüsusi rəng qatıb.

Müsabiqəyə Xalq artistləri Arif Babayev, Mələkxanım Eyyubova, Sərdar Fərəcov, Mənsum İbrahimov, Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar artist Fərqanə Qasımova və müsabiqənin icraçısı Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi münsiflik edib.

Münsiflərdən Xalq artisti Arif Babayev final mərhələsinin iştirakçılarına xeyir-dua verib: "Şuşa Azərbaycan mədəniyyətinə böyük dühalar, musiqi xiridarları bəxş edib. Bu torpaq basılmazdır, biz onun qucağına yenə də gəldik və yenə də gələcəyik. Çox şükür ki, Qarabağ torpağının üstündəyik, Şuşadayıq, alınmaz bir qaladayıq. Biz burada daim yaşayıb-yaradacağıq. Şəhidlərə rəhmət, qazilərə cansağlığı diləyirəm. Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sağ ol deyirəm. Mehriban xanım bəlkə də dünyanın xeyirxah xanımları arasında birincidir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu çox böyük işlər görüb və onlardan biri də məhz muğam müsabiqəsidir. Bu, çox böyük işdir və inanırıq ki, muğamımız, muğamatımız etibarlı əllərdədir və həmişə yaşayacaq".

Sonra söz müsabiqənin finalçılarına verilib. Müsabiqənin finalında gənc xanəndələr Fuad Əzizzadə, Ülkər Abdullayeva, Daşqın Kürçaylı, Aynur Həsənxanova, Vüqar Əbilov, Pedram Rəncbər və Məftun Səfərli ilə yanaşı, azyaşlı ifaçılar Həzrət Əzizli, Fatimə Kərimova və Sabir Ağayevin çıxışları dinlənilib, münsiflər heyətinin məşvərətindən sonra qaliblərin adı elan olunub.

Azyaşlı ifaçılar arasında birinci yerə Həzrət Əzizli, ikinci yerə Fatimə Kərimova, üçüncü yerə isə Sabir Ağayev layiq görülüblər.

Gənc xanəndələr arasında isə Fuad Əzizzadə birinci, Ülkər Abdullayeva və Aynur Həsənxanova ikinci, Daşqın Kürçaylı və Vüqar Əbilov üçüncü yeri tutublar.

Münsiflərin qərarı ilə Pedram Rəncbərə və Məftun Səfərliyə həvəsləndirici mükafatlar verilib. Müsabiqənin digər iştirakçılarına diplomlar təqdim olunub.

Müsabiqənin icraçısı Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi qalibləri təbrik edərək deyib: "Biz bu müsabiqədə yeni istedadlar kəşf etdik, gözəl səslər, ifalar dinlədik. Muğam müsabiqəsinin yekununda mən bütün yaradıcı heyət, gənclər, musiqiçilər adından himayədarımız, klassik sənətimizin, ümumiyyətlə Azərbaycan milli mədəniyyətinin keşiyində dayanan ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya təşəkkür etmək istəyirəm. Son onilliklərə nəzər salanda görürük ki, Azərbaycan klassik mədəniyyəti, ümumiyyətlə, milli mədəni irsimiz, milli dəyərlərimizlə əlaqədar istənilən tədbirin əvvəli də, sonu da Mehriban Əliyevanın adı ilə bağlı olur. Bunun üçün Azərbaycanın birinci xanımına xüsusi təşəkkür edirik. Son onilliklərdə onun mədəniyyətimizə olan diqqət və qayğısı sayəsində milli-mənəvi dəyərlərimizin xeyli dərəcədə yüksəldiyinin şahidi olmuşuq. Yaşlı nəsil yaxşı xatırlayır ki, bir vaxtlar milli musiqimiz, ədəbiyyatımız, klassik poeziyamıza layiqincə dəyər verilməsi məsələsinə ümidsiz yanaşırdıq. Bu sahəyə diqqət və qayğı olduqca az idi, lakin Heydər Əliyev Fondu təşəbbüsü üzərinə götürəndən sonra o qədər istedadlı gənc meydana çıxır ki, hətta bəzən onlardan kimlərinsə adları unudulur, bir qismini isə yada salmaq olmur. Ona görə ki, bu gün böyük bir sənətkarlar nəsli yetişməkdədir. Bizim gələcək mədəniyyətimiz bu gün burada iştirak edən gənclərin, azyaşlı uşaqların çiyinləri üzərində olacaq".

Sonra qaliblərin ifasında "Qarabağ şikəstəsi" səsləndirilib.

Qalibləri təbrik edən Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlu Şuşada muğam müsabiqəsində iştirak etməyin çox böyük uğur olduğunu söyləyib, müsabiqənin təşkilatçılarına təşəkkürünü bildirib. Onun ifasında "Gülə-gülə ay xanım" və "Şən Azərbaycan" mahnıları səslənib.

Qeyd edək ki, müsabiqənin seçim turları aprelin 9-da başlanıb, Ağdam, Füzuli və digər işğaldan azad olunmuş ərazilər başda olmaqla bütün regionları əhatə edib. Yarışma mayın 10-da start götürüb. Müsabiqə üç ay müddətində həftədə iki dəfə olmaqla Azərbaycan Televiziyası və "Mədəniyyət" kanalı vasitəsilə canlı yayımlanıb.

# Dövlət Xidməti ölkəmizin elektron informasiya resurslarına qarşı kiberhücumlarla bağlı xəbərdarlıq edib

Ölkəmizin elektron informasiya resurslarına qarşı genişmiqyaslı kiberhücumlar hazırlanıb.

Bu barədə AZƏRTAC-a Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzindən məlumat verilib.

Bildirilib ki, mərkəz ölkəmizə qarşı keçirilən kiberhücumları nəzarətdə saxlayaraq 24/7 monitorinqini aparır və dövlət informasiya resurslarına qarşı 03.05.2022-ci il tarixdən davam edən DDOS və digər tipli kiberhücumların qarşısını uğurla alır.

XRİTDX dövlət və qeyri-dövlət informasiya resursları inzibatçılarını, eləcə də fişinq tipli hücumlara qarşı vətəndaşlarımızı diqqətli və ayıq olmağa çağırır.

# Geosiyasi gərginlik getdikcə artır

## BMT-nin Baş katibi Antonio Quterreş bəyan edib ki, yalnız bir səhv dünyanı məhv olma təhlükəsi ilə üzləşdirə bilər

"Nüvə silahından imtina və onun məhv edilməsi bu növ silahdan heç vaxt istifadə olunmayacağının yeganə təminatıdır".



Bunu BMT-nin Baş katibi Antonio Quterreş Nüvə Silahlarının Yayılmaması Müqaviləsinin iştirakçısı olan ölkələrin 10-cu konfransında söyləyib. BMT rəhbərinin sözlərinə görə, hazırda nüvə təhlükəsi soyuq müharibə dövründən bəri ən yüksək həddə çatıb. Ona görə də dünyanın Nüvə Silahlarının Yayılmaması Müqaviləsinə həmişəkindən daha çox ehtiyac var.

BMT-nin Baş katibi qeyd edib ki, yalnız bir səhv dünyanı məhv olma təhlükəsi ilə üzləşdirə bilər: "Yaranmış əlverişli imkan fəlakətin qarşısını almağa və bəşəriyyəti nüvə silahlarından azad dünyaya aparan yeni yola çıxarmağa kömək edəcək tədbirlər hazırlamaq üçün fürsətdir. Bu, müqaviləni gücləndirmək, onu ətrafımızdakı problemli dünyaya uyğunlaşdırmaq üçün bir şansdır".

Geosiyasi gərginliyin getdikcə artdığını deyən A.Quterreş xüsusilə Rusiya- Ukrayna, Yaxın Şərq və Koreya yarımadasındakı münaqişələrə işarə edərək vurğulayıb ki, bəşəriyyət Xirosima və Naqasakiyə edilən hücumlardan götürdüyü dərsləri unutmaq təhlükəsi ilə üz-üzədir. Yəni, istənilən dövlətin bu silahdan istifadəsi ağır fəlakətlərə səbəb ola bilər.

Bu arada Rusiya Prezidenti Vladimir Putin də konfrans iştirakçılarına məktub göndərib. Bir çox məsələlərə toxunan Putin qeyd edib ki, nüvə müharibəsində qalib ola bilməz və onu heç vaxt başlamaq olmaz, Rusiya Federasiyası Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin hərfinə və ruhuna ardıcıl şəkildə əməl edir.

ABŞ dövlət katibi Entoni Blinken isə Vaşinqtonun nüvə silahından yalnız fövqəladə hallarda istifadə edə biləcəyini bildirib. Onun sözlərinə görə, Vaşinqton atom arsenalına yalnız ölkənin və onun müttəfiqlərinin həyati maraqlarını qorumaq üçün zəruri olan müdafiə vasitəsi kimi baxır.

Qeyd edək ki, 10-cu İcmal Konfransı 2020-ci ilin may ayında Nyu Yorkda keçirilməli idi, lakin koronavirus pandemiyası səbəbindən 2022-ci ilin avqust ayına kimi təxirə salınmışdı.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün "Digər malların alınması" xərc maddəsi üzrə malların satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.07.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.07.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 09.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 19.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 20.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### struktur idarələrinə tələb olunan müxtəlif katriclərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### struktur idarələrinə tələb olunan süzgəclərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### Dənizçi Təmir-Tikinti MMC-yə tələb olunan laminat və plintusların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### struktur idarələrinə tələb olunan boya qatqılarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### struktur idarələrinə tələb olunan fərdi mühafizə vasitələrinin (xüsusi geyimlər və ipsiz çəkmələr) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### Azərbaycan Dövlət Dəniz Akademiyasının əsas inzibati binası və II korpusu üçün mebellərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 avqust 2022-ci il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç., 18, ADDA-nın əsas inzibati binası.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 3042**

***Tender komissiyası***

## "ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

"ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti 02 sentyabr 2022-ci il saat 11:00-da səhmdarlarını növbədənkənar yığıncağına dəvət edir.

İclasın gündəliyində aşağıdakı məsələlər durur:

1. "ERA" ATSC-nin təsisçisinin qərarı ilə qanuni təmsilçilik funksiyasına malik direktor vəzifəsinin seçilməsi.
2. "ERA" ATSC-nin nizamnaməsinin yeni redaksiyada (2-ci redaksiyada) təsdiq edilməsi.
3. "ERA" Açıq Tipli Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") adından tipli sözünün çıxarılması.
4. Nizamnaməyə dəyişiklik edilməsi ilə əlaqədar və dəyişikliklərin dövlət qeydiyyatına alınması ilə bağlı səlahiyyətli şəxsin müəyyən edilməsi və kommersiya qurumunun dövlət reyestrindən çıxarışın alınmasının təşkili.
5. Digər məsələlər.

İclas səhmdar cəmiyyətin ofisində keçiriləcək.

**Ünvan: Nərimanov rayonu, İslam Abışov küç., 20/94 Tel.: (012) 563-13-40**

***"ERA" ATSC***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün mebel inventarlarının satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz manat) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs- İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.07.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.07.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 12.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 20.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 21.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz manat) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.07.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.07.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 12.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 20.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 21.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Kəmalə Rzayevaya qardaşı
**YAQUBUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi qələm yoldaşları
**ARAZ ZEYNALOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi "Azərişıq" ASC-nin sədrinin müşaviri Kamil Hüseynova qardaşı
**ƏLİ HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə qardaşı
**MAİS HÜSEYNZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə qardaşı
**MAİS HÜSEYNZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə qardaşı
**MAİS HÜSEYNZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyev və Həmkarlar İttifaqı Komitəsi "Xüsusu texnologiyalar və avadanlıqlar" kafedrasının məsləhətçi professoru
**ƏLİ HİDAYƏT OĞLU SADIXOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6065
Sifariş 2143
Qiyməti 40 qəpik